**UOT 621.395.13**

**MƏMMƏDOVA G.V.**

*AzTU*

# NƏQLİYYAT VƏ RABİTƏ XİDMƏTİ TƏSƏRRÜFATLARINİNN BİZNES FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Nəqliyyat və rabitə xidməti təsərrüfatlarının istər cari, istərsə də strateji biznes fəaliyyətinin səmərəliliyinin planlaşdırılması, təhlili və qiymətləndirilməsi aşağıdakı prinsiplərə əsaslandırılmaılıdır:

- **Sistem yanaşma**. Nəqliyyat və rabitə xidməti təsərrüfatlarına vahid bir kibernetik sistem kimi baxılmalıdır. Bu tam sistemin bütün elementlərinin qarşılıqlı əlaqələri və təsiri nəzərə alınmalıdır. Digər tərəfdən bu xidmətlərin biznes fəalityyətinin planlaşdırılmasında obyektiv iqtisadi qanunların tələbləri nəzərə alınmalıdır.
- **Kompleks yanaşma.** Nəqliyyat və rabitə xidməti müəssisələrində biznes fəalityyətinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsində texniki-texnoloji, ekoloji, psixoloji, fizioloj və digər amillər kompleks halında nəzərə alınmalıdır.
- **Optimallıq.** Nəqliyyat və rabitə xidməti təsərrüfatlarında plan-iqtisad təşkilatı və əməli idarəetmə məsələlərinin çoxvariantlı olduğunu nəzərə alaraq, həmin variantlardan (qəbul edilmiş meyara nəzərən) ən yaxşısının seçilməsi tələb olunur. Seçilmiş ən yaxşı variant optimal variant hesab olunur. Optimal variantın seçilməsi resursların səmərəli istifadəsinin riyazi optimallaşdırma metodlarının tətbiqini tələb edir.
- **İqtisadi və ekoloji səmərəlilik.** Nəqliyyat və rabitə xidməti müəssisələrində həyata keçiriləcək tədbirlərin iqtisadi və ekiloji səmərəliliyi təmin edilməlidir.
- **Qənaətçilik.** Nəqliyyat və rabitə xidməti müəssisələrinin sərəncamında olan resurslardan qənaət rejimi əsasında mütərəqqi norma və normativlər üzrə tam səmərəli istifadə edilməlidir. Müvafiq göstəricilər həmin müəssisələrin cari və strateji biznes - planlarında öz əksini tapmalıdır.
- **Sahə və ərazi idarəetmənin məqsədəuyğun əlaqələndirilməsi.** Nəqliyyat və rabi-
- tə xidməti müəssisələrində sahə və ərazi tədbirlər məqsədəuyğun əlaqələndirilməlidir.
- **Maddi və mənəvi həvəsləndirmə.** Nəqliyyat və rabitə xidməti müəssisələrində kollektivin maddi və mənəvi maraqlarının stimullaşdırılması təmin edilməlidir.
- **Şəxsi, kollektiv və dövlət (ümumxalq) mənafelərinin düzgün əlaqələndirilməsi.** Ümumxalq (dövlət) mənafeyi başlıca meyar qəbuledilməklə göğştərilən mənafelər əlaqələndirilməlidir.
- **Təkbaşına rəhbərlik və əsas tədbirlərin müzakirəsində əməkdaşların hər birinin iştirakının təmin edilməsi.** Belə ki, nəqliyyat və rabitə müəssisələrində resursların qorunması, onların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsində əməkçillərin hər birinin fəal iştirakı təmin edilməlidir.
- **Nəzarətin təşkili və icranın yoxlanılması.** Müəssisənin bütün bölmələrində, o cümlədən iş yerlərində nəzarətin təşkili və icranın yoxlanılması təmin edilməlidir. Nəzarət və yoxlamalar nəticəsində müəyyən edilmiş nöqsanlar toplanmış yoxlama materialları təhlil edilir və müvafiq hesabatlarda (istehsalat müşavirələrində və kollektivin ümumi yığıncağında müzakirə edilərək) müvafiq qərarlar qəbul edilir. Həmin qərarlar əsasında müəssisənin biznes fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar kompleks tədbirlər planı işlənib hazırlanır və əməli-təqvim-qrafik üzrə həyata keçirilir.

Yuxarıdakı prinsipləri nəzərə alaraq nəqliyyat və rabitə xidməti müəssisələrində cari və

strateji biznes-planı işlənib hazırlanarkən, həmin sistemin müəssisələrinin sərəncamında olan resursların biznes-plana müvafiq istifadəsinin əsas göstəriciləri aşağıdakı metodika üzrə hesablanmalı, uçota alınmalı və

müqayisəli təhlil edilməlidir.

1. Təbii resursların səmərəli istifadə göstəriciləri:

a) təbii resursların gəlirlilik əmsalı:

$$Ə_g^{t.r} = \frac{\sum G_ü}{\sum X_{t.r}}$$

burada $\sum G_ü$ - meliorasiya sisteminin illik gəlirinin ümumi məbləği, $\sum X_{t.r}$ - təbii resursların qorunması və istifadəsi ilə əlaqədar xərclərdir.

b) təbii resursların mənfəətlilik əmsalı:

$$Ə_M^{t.r} = \frac{\sum M_b}{\sum X_{t.r}}$$

burada $\sum M_b$ - nəqliyyat və rabitə xidməti müəssisələrinin illik balans mənfəətinin ümumi məbləğidir.

2. Material-texniki resursların səmərəli istifadə göstəriciləri:

a) material-texniki resursların gəlirlilik əmsalı:

$$Ə_g^{m.r} = \frac{\sum G_ü}{\sum X_{m.t.}}$$

burada $\sum G_ü$ - müəsissənin illik gəlirinin ümumi məbləği, $\sum X_{m.t.}$ - material-texniki resurslara çəkilən xərclərdir.

b) material-texniki resursların mənfəətlilik əmsalı:

$$Ə_M^{m.t.} = \frac{\sum M_b}{\sum X_{m.t.}}$$

3. Enerji resurslarının səmərəli istifadə göstəriciləri:

a) enerji resurslarının gəlirlilik əmsalı:

$$Ə_G^{en} = \frac{\sum G_ü}{\sum X_{en}}$$

burada $\sum G_ü$ -müəsissənin illik gəlirinin ümumi məbləği, $\sum X_{en}$ -enerji resurslarına çəkilən xərclərdir.

b) enerji resurslarının mənfəətlilik əmsalı:

$$Ə_M^{en} = \frac{\sum M_b}{\sum X_{en}}$$

4. Əmək resurslarının səmərəli istifadə göstəriciləri:

a) əmək resurslarının gəlirlilik əmsalı:

$$Ə_G^{ə.r} = \frac{\sum G_ü}{\sum Ə_{hf}}$$

burada $\sum Ə_{hf}$ - əmək haqqı fondunun illik məbləğidir.

b) əmək resurslarının mənfəətlilik əmsalı:

$$Ə_M^{ə.r} = \frac{\sum M_b}{\sum Ə_{hf}}$$

5. Maliyyə resurslarının səmərəli istifadə göstəriciləri:

a) uzun müddətli kreditin gəlirlilik əmsalı:

$$Ə_g^{u.k} = \frac{\sum G_ü}{\sum UK}$$

burada $\sum UK$ -uzun müddətli kreditin illik məbləğidir.

b) uzun müddətli kreditin mənfəətlilik əmsalı:

$$Ə_M^{u.k} = \frac{\sum M_b}{\sum UK}$$

c) qısa müddətli kreditin gəlirlilik əmsalı:

$$Ə_g^{q.k} = \frac{\sum G_ü}{\sum QK}$$

burada $\sum QK$ - qısa müddətli kreditin illik məbləğidir.

d) qısa müddətli kreditin mənfəətlilik əmsalı:

$$Ə_M^{q.k} = \frac{\sum M_b}{\sum QK}.$$

## ƏDƏBİYYAT


1. Cümşüdov S.Q. Xidmət sahələrinin sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi. Dövlət idarəçiliyi jurnalı. №1(9), Bakı, "Çaşıoğlu", 2005, səh. 96-104.
2. S.Q. Cümşüdov, G.V. Məmmədova. Metallurgiya şirkətində nəqliyyat və rabitə xidmətlərinin səmərəli təşkili məsələləri. "Metallurgiya və materialşünaslığın problemləri" I Beynəlxalq elmi-texniki konfransın materialları. Bakı, 29-30 aprel, 2013, səh. 231-232
3. Cümşüdov S.Q. Azərbaycanda "Elektron hökümətin formalaşmasının metodoloji prinsipləri. Elektron hökümət Azərbaycanda". Beynəlxalq konfransın məruzə materialları. AzTU, Bakı 26-28 aprel, 2010, səh. 157-160.


**Məmmədova G.V.**

### Nəqliyyat və rabitə xidməti təsərrüfatlarının biznes fəaliyyətinin səmərəliliyinin təhlili və qiymətləndirilməsi

### XÜLASƏ

Məqalədə nəqliyyat və rabitə xidməti təsərrüfatlarının biznes fəaliyyətinin səmərəliliyinin təhlili və qiymətləndirilməsi məsələləri araşdırılır.

***Açar sözlər:*** *nəqliyyat, rabitə, biznes, səmərəlilik, sistem yanaşma, kompleks yanaşma, gəlirlilik, mənfəətlilik.*

**Маммадова Г.В.**

### Анализ и оценка бизнесной деятельности хозяйств с транспортными и телекоммуникационными условиями

### РЕЗЮМЕ

В статье рассмотрены вопросы планирования эффективного использования ресурсов хозяйств с учетом транспортных и телекоммуникационных услуг. При этом эффективность бизнесной деятельности оцениваются показателями доходности и прибыльности их ресурсов.

***Ключевые слова:*** *транспорт, связь, эффективность, системный подход, комплексный подход, доходность, прибыльность.*

**Mammadova G.V.**

### Analysis and assessment of business activities of farms with transport and telecommunications conditions

### SUMMARY

The article discusses the issue of efficiency of transport and telecommunications business. The analysis and elevation of utilization of resources in conducted, basing on key performance indications of current and strategic business plans.

***Key words:*** *transport, communications, efficiency, system approach, integrated approach, profitability, revinue.*

*Məqaləyə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət darəçilik Akademiyyasının professoru i.e.d., prof. S.Q. Cümşüdov rəy vermişdir.*